**AZAD NƏBİYEV**
***Bakı Dövlət Universiteti***

# GENİN FƏALİYYƏT FUNKSİYALARI, PARÇALANMA FORMALARI VƏ YADDAŞ KODUNUN DİNAMİKASI

Genin öyrənilmə tarixi ilə bağlı araşdırmalar onun öyrənilmə istiqamətlərinin genişliyi və müxtəlifliyi barədə kifayət qədər məlumatı əhatə edir. Gen nəzəri baxışları təkcə mədəni dəyər oxşarlıqlarına yox, eyni zamanda elmin müxtəlif sahələrinə tətbiq edildi və bir sıra uğurlu nəticələr üzə çıxdı. Genetika, seleksiya, biologiya, mikrobiologiya, təbabət və digər başqa sahələrdə gen nəzəriyyəsinin tətbiqi yeni bir dünyanı insanların üzünə açmağa başladı. Ancaq oxşar üslub, forma, süjet, motiv və başqa mənəvi-əxlaqi dəyərlərin öyrənilməsində gen düşüncəsinin siyasiləşdirilməsi, məsələyə idealist və materialist mövqedən yanaşma iddiaları ətrafında aparılan diskussiyalar onun sivilizasiya dəyərlərinin oxşarlıqlarını öyrənmək sahəsindəki rolunu uzun zaman ərzində əngəllədi (1,s.3-6).

Sovetlər dönəmində gen, mənşə birliyindən qaynaqlanan mədəni dəyərlərin (dünya folklor süjetlərinin) oxşarlıq çevrəsindəki ümumiliklərin öyrənilməsi ilk öncə idealist baxışlar məcmuu kimi təqdim edildi. Problemin həllinə çox yaxın olan N.Y.Marr və onun tərəfdarlarının ölkənin birinci şəxsi tərəfindən kəskin tənqidi bu sahədə görülən işləri demək olar ki, yarımçıq qoydu (2,s.153). Ancaq əslində N.Y.Marr öz nəzəriyyəsində dünyəvi dəyərlərə əsaslanır, dilin cəmiyyətdəki rolu, oxşar dillər və onların spesifik xüsusiyyətləri barədə nəzəri mülahizələrdə bir çox hallarda materialist baxışlar mövqeyinə söykənirdi.

Akademik N.Y.Marr hələ ötən yüzilliyin 20-ci illərinin sonunda öz nəzəri mülahizələrində mədəni dəyərlərin nəsil şəcərəsini Nuh övladı Yafətin şəcərə ənənələri ilə bağlayır, dünya xalqlarının mədəni dəyərlərindəki oxşarlıqları onların tarixi qohumluğu ilə araşdırmaqda gen birliyinin dinamik və dövri, pozulmaz və əbədi fəaliyyət funksiyalarını müəyyənləşdirməyə çox yaxınlaşmışdı (3,s.382). Ancaq kifayət qədər mükəmməlləşməmiş bu nəzəriyyə-

də hələ boşluqlar da az deyildi. İ.V.Stalinin dediyi kimi, «... ən mühümü isə «Nikolay Yakovleviçin idealist, çürük və cəfəng burjua uçurumunun lap kənarında ayaq saxlaması idi» (4,s.323). Təbii ki, İ.Stalin N.Y.Marrın dünya xalqlarının mədəni dəyərlərindən olan dil oxşarlıq və bənzərliklərinin Nuh övladı Yafətin nəslindən törəməsini, dünya xalqlarının şəcərə eyniliyinin həmən kökdən başlanmasını qəbul etmirdi. N.Y.Marr ona qarşı yönəlmiş tənqid və iradları inadkarlıqla rədd edərək mədəni dəyərlərin (dil dəyərlərinin) genetik birlik ilə bağlı olduğu barədə mülahizələrini 40-cı illərin sonuna qədər təkmilləşdirərək inkişaf etdirdi. Müəyyən məqamlarda o öz nəzəri baxışlarını yeni mülahizə və görüşlərlə zənginləşdirsə də, bir sıra idealist dəyərlərdən imtina edib materializmə yaxınlaşsa da bütövlükdə dilçilikdə özünəməxsus mövqelərindən imtina etmədi (3,s.89).

Bununla belə, mədəni oxşarlıqların sivilizasiyaya məxsus dəyərlərin eynilik, oxşarlıq və bənzərliklərinin gen düşüncəsi ilə bağlılığı müəyyənləşdirilməmiş qaldığı kimi, onun inkişaf xüsusiyyətləri və mərhələləri, törəniş funksiyaları da açıqlanmadı. Gen birliyinin, mənşə ənənələrinin davamlılığı üçün mühüm şərt və vasitə olan gen yaddaşının fəaliyyət funksiyaları, onun nəsil düşüncəsi ilə bağlılığı, yaddaş kodunun spesifikası, dinamiklik və fasiləsiz fəaliyyət imkanları öyrənilə bilmədi. Bundan əlavə, gen yaddaşının parçalanma və ayrılma, bölünmə imkanları, qlobal və regional gen yaddaşları, onların yayılma və fəaliyyət funksiyalarını müəyyənləşdirmək də gündəmdə qalmaqda davam etdi. Geneoloji ümumilik isə onun bütün forma və məzmun, mahiyyət və fəaliyyət funksiyalarini açıqlamağı tələb edirdi. Həm də bunlar dünya xalqlarının oxşar mədəni dəyərlər yaratmaq imkanlarından çıxış edib ibtidai insanın ilk mifoloji baxışlarından başlamış bütün sonrakı inkişafını izləməyi vacib hesab edirdi. V.Manqardt «Alman mifoloji abidələri» əsərində oxşar mədəni dəyərlərin T.Benfeyin göstərdiyi kimi Avropaya Şərqdən keçməsinə şübhə ilə yanaşırdı. O yazırdı: «... T.Benfeyin süjetlərin (xüsusilə nağıl, əfsanə və təmsillərin) dünyaya yayılma forması düşündürücüdür. Ancaq bu süjetlərin təkcə hindlilərə məxsusluğu inandırıcı deyildir. Ehtimal ki, bir çox oxşar mədəni dəyərlər, lap elə alman mifoloji abidələrində gözə dəyən oxşarlıqlar həm hindlilər, həm də avropalılar üçün müştərək olan ortaq bir qaynaqdan baş alıb gəlir. *Bu qaynağı tapmaq, ortaqlığın mahiyyətini açıqlamaq üçün mifologiyaların tarixini yenidən araşdırmaq vacibdir. Oxşarlıqların, bən-*

*zər mədəni dəyərlərin bu ilkin qaynaqdan baş alıb gəlməsini ortaya çıxarmaq oxşar dəyərlərin meydana çıxma şəraitini açıqlamaqda çox mühüm mərhələ olardı...»* (11,s.1) (kursiv bizimdir) (5,s.25).

Göründüyü kimi, burada bənzər dəyərlər üçün ortaq qaynağın mövcudluğuna aydınca işarə edilir, ancaq onun açıqlanması tədqiqat obyektinə çevrilmirdi.

Mənşə birliyi ilə bağlı süjetlərin meydana çıxmasının uzun və təzadlı bir tarixi vardır. Bu, əslində ibtidai insanların vəhşilikdən uzaqlaşıb sivil mədəniyyətə doğru irəliləyişindən başlayırdı. Gen – mənşə düşüncəsinin yaranması insanın şüurlu fəaliyyətinin yüksəlişi ilə vəhdətdə, onun ilkin müşahidələrinin bədii inikası kimi özündə ibtidai cəmiyyətin bir sıra çox mühüm göstəricilərini əhatə edir, onlar isə ümumilikdə gen düşüncəsinin ardıcıl inkişafı ilə bağlı müəyyən bir çevrə daxilində fəaliyyət göstərir. Bu fəaliyyət etnosun sivilizasiyaya doğru inkişaf səviyyəsi, coğrafi region şəraiti, təbiət atributları, etnik mənsubiyyəti, insan tipinə dair müxtəlifliyi, yaşadığı qəbilə, tayfa və cəmiyyətin ictimai-sosial durumu və inkişaf səviyyəsi onun məşğuliyyət sahələri və sair ilə sıx bağlıdır.

*Ona görə də inkişaf səviyyəsindən asılı olmayaraq xalqların mifologiyalarını bu gün tədris planlarından çıxarıb onları ancaq yazılı abidələri öyrənməklə əvəzləmək milli tərəqqiyə ən böyük zərbə və xəyanətdir. Bu meyl təkcə mədəni dəyərləri öyrənməyə gedən yolu bağlamaq yox, eyni zamanda bütövlükdə dünya xalqlarının mifoloji materiallarının sistemli şəkildə öyrənilməsindəki sıçrayışlı nailiyyətləri beşiyində boğmaqdır.*

Dünya xalqları üçün müştərək süjet qaynağı olan gen yaddaşı xalqların vəhşilik dövründən başlayaraq sivilizasiyaya doğru inkişafının **birinci** mərhələsində formalaşmışdır. Bu mərhələdə və yaxud fazada isə erkən etnosların dünyanı oxşar şəkildə dərk etməsi, mədəni dəyərlərin və mədəni qəhrəmanın yaranması, dərketmə düşüncəsinin şəcərə, nəsil, tayfa, el yaddaşına söykənməsi ilə sıx təmasdaydı. Ümumilikdə isə gen yaddaşının formalaşması çoxmərhələli və çoxfazalı olub inkişafın bir çox mühüm və başlıca sahələrini əhatə edir.

**İkinci mərhələ** – (faza) təbiətin dərki, mövsum və məişət mərasimlərinin formalaşması, ilk inanc, tapınma, yallı, rəqs, oyun, erkən ünsiyyət vasitələri-

nin, ən nəhayət dilin meydana çıxma reallığının yaddaşda möhkəmlənməsi kimi nəzərə çarpır.

**Üçüncü mərhələ** – (faza) daha mükəmməl ifadə, ünsiyyət vasitələrinin meydana çıxması, ədəbi üslubların formalaşması, süjet, motiv və obrazlar silsiləsinin gündəlik məişətdən yaddaşa ötürülməsi, zaman-zaman onların cilalanıb şaxələnməsi ilə şərtlənir.

**Dördüncü mərhələ** (faza) – alplıq, cəngavərlik, qəhrəmanlıq, ailə-əxlaq, davranış, qız arxasınca getmə, qız sevmə, qız uğrunda mübarizə və s. dəyərlərin mədəni düşüncəyə transferi ilə diqqəti cəlb edir.

**Beşinci mərhələ** (faza) – mədəni-estetik, bəşəri və dünyəvi dəyərlərin, sevgi, məhəbbət, qəzəb, nifrət, böhtan və s. əxlaqi və qeyri-əxlaqi keyfiyyətlərin modernləşib gen düşüncəsinə transferi ilə bağlı formalaşır və gen düşüncəsinin tamamlanması ilə başa çatır.

Gen düşüncəsinin məzmun çevrəsinin müxtəsər görüntüsünü aşağıdakı şəkildə əks etdirmək olar:

***Gen – şəcərə, nəsil düşüncəsinin ümumi məzmun görüntüsü***

***Sxem 1***



Gen düşüncəsinin II və III mərhələləri bir-biri ilə sıx qarşılıqlı əlaqədə olub, daimi qarşılıqlı təmasdadır. O, əslində birinci törəniş mərhələsindən qopub ikinci və .üçüncü mərhələləri şərtləndirir. Hər biri isə ayrı-ayrılıqda dördüncü və beşinci mərhələlərin fəaliyyət funksiyalarının həyatvericilik qabiliyyətini təmin edir, qaynaqlandığı həmin çevrədə daimi qarşılıqlı fəaliyyətdə davam edib yüksəlir.

Gen düşüncəsini $G_d$ ilə, I fazanı $H_1$, ikinci fazanı $H_2$, üçüncü fazanı $H_3$, dördüncü fazanı $H_4$, beşinci fazanı $H_5$-lə işarə etsək onda gen düşüncəsi qaynağını riyazi şəkildə belə ifadə etmək olar:

$$G_d = H_1 + (H_2 + H_3) \times (H_4 + H_5)$$

Bu beş inkişaf və formalaşma mərhələsində vəhşiliyin sonuncu keçid mərhələsini yaşayan etnosun (sonradan millət, xalq kimi formalaşacaq) şərti olaraq «gen» adlanan düşüncə (yaddaş) cəbbəxanası yaranıb möhkəmlənir və özünün transilə və transfer funksiyalarını ilkin səviyyədə hərəkətə gətirir.

«Beş fazalı» düşüncə qatının ikinci layı ibtidai insanın yaşadığı region, relyef və iqlim müxtəlifliyindən asılı olaraq biri-birindən seçilən fərqli forma və qəliblər yaradır, uzun çəkən dövr üzrə daimi dinamikada olub, ötürücülük funksiyasını qoruyan hərəkət trayektoriyası formalaşdırır. Bu fazada gen düşüncəsi eyni zamanda fasiləsiz dinamikada olub, II və III fazaların hərəkət, formalaşma və sürət tempini mühafizə edir. Onun pozulmazlığını, irəliyə doğru sürətli yüksəlişini və sivilizasiya dəyərlərini formalaşdırma imkanlarını yüksəldir. Daha sürətli mədəni dəyərlər yaradan xalqların gen düşüncəsi II və III fazada özünün yüksək süjetyaratma və yaddaşa ötürmə funksiyasını aktiv halda, fasiləsiz təmin edir.

Milli mədəni dəyərləri qismən inkişaf etmiş xalqların (bunu regional düşüncəli xalqlara aid etməklə) gen düşüncəsi cəbbəxanasının II, III və V fazaları sürət tempinə görə qeyri-aktivdir. Gen düşüncəsi I və IV fazalarda vahidlərə bölünməzdir, tam və bütövdür. Özünəməxsusluqlarla əlamətdardır, transilə edilərkən bütövlüyünü saxlamaq imkanına malikdir. «Səyyar transilə» formasında dünyaya yayılır. Bütün xalqlar üçün oxşar və ya eyni modellərdə yayımlanır. Milli həyat materialları və detallarını çətinliklə qəbul edir, cüzi transformasiyalara məruz qalır. Ancaq bu süjetlərin çevrəsi o qədər də geniş deyildir. Ögey ana, övladsızlıq, atalar-oğullar, qızın nahaqdan böhtanlanması, nişanlının toyuna gəlib çıxması və s. Bu məzmunlu süjet silsiləsində

dünya xalqları sırasına yayılan gen düşüncəsinin ana xətti pozulmaz, bölünməz və sabitdir. Törəniş etibarıyla beşinci fazanın formalaşma ənənəsinə uyğun gəlir.

İbtidai insanın antropoloji durumunun formalaşdığı mərhələdə «gen düşüncəsi» - I fazada formalaşan süjet sxeminin demək olar ki, oxşar modellərini təkrarlayır.

Gen düşüncəsinin I və II fazalarının müvazi durumunda çoxvariantlı bölünmə, parçalanma və yenidən yaranmalar özünü göstərir. Ancaq bunlar etnoslararası fərdiliyə malikdir. Bu fazaların süjet, motiv və obraz yaradıcılığı əsasən eyni etnik mənşəyə məxsus xalqların folklorunda oxşar dəyərlər yaradır, yalnız bu mərhələdə gen düşüncəsi qlobal düşüncə modelləri formalaşdırır və onlar oxşar, eyni etnik qruplar üzrə variantlaşır.

Süjet oxşarlıqlarının gen, mənşə düşüncəsi qaynağından qopub ayrılması həm qədim kökə malik xalqların, həm də eyni etnik kökdən olub, lakin müxtəlif dilli, yaxud yaxın dilli etnosların mədəni dəyərləri içərisində özünü daha fəal göstərir. Eyni etnik köklü xalqlar içərisində qlobal gen düşüncəsindən qopub gələn və parçalanıb regionlaşan süjetlər əsas yer tutur. Türk xalqlarının folkloru, skandinav, alman və slavyan folkloru və s. belə yaradıcılıq ənənələrini daha fəal yaşadıb bölünmələrə və parçalanmalara asanlıqla məruz qalır.

Mənşə birliyi və gen ümumiliyi ilə bağlı süjetlər dünya xalqlarının şifahi yaradıcılığında müxtəlif inkişaf səviyyəsində - məsələn, tarixi-genetik və tarixi-poetik səviyyələrdə özünü göstərdiyi kimi, eyni zamanda etnogenetik, etnopsixoloji və etnokulturoloji ölçülərdə də nəzəri cəlb edir. Bu isə ümumilikdə gen düşüncəsinin bədii dəyər və məzmununun daim xalqın mifologiyası, mədəni-tarixi inkişafı, tərəqqi və təkamülü, mədəni yüksəlişi ilə bağlı olduğunu göstərir. Sivilizasiya dəyərlərinin əzəmətini, məzmun dolğunluğunu, forma və üslub gözəlliyini, eləcə də geniş improvizə imkanlarına məxsusluğunu əks etdirir.

Gen düşüncəsinin həyat faktlarının, erkən dərketmələrin, onların yüksəlişinin, eləcə də sonrakı mərhələlərdəki ictimai-mədəni dəyərlərinin formalaşmasının ümumi mənzərəsi çoxcəhətlidir. O, tam, bütöv, vahid bir sistemdir. Etnosun mədəni dəyər yaradıcılığı ilkin formalaşma prosesindən başlayıb yüksək etik-estetik dəyərlər çevrəsinə qədərki yüksəlişi özündə ehtiva

edir. Bu qlobal inkişaf isə yuxarıda qeyd edildiyi kimi, etnosun tarixi-genetik və etnopoetik imkanlarının formalaşması ilə sıx bağlıdır. Tarixi-genetik və etnopoetik düşüncə etnosun ümumi inkişaf tarixini, xüsusilə şəcərə, nəsil, tayfa həyatını, onun bədii dərketmə imkanları və poetik ifadə vüsətini izləməyə imkan verən əsas təmayüllərdəndir. Məhz bu yaradıcılıq prosesi zəminində meydana çıxan genetik düşüncəyə məxsus mədəni dəyərlər etnosun gen yaddaşı cəbbəxanasını zənginləşdirmək funksiyalarını həyata keçirir. Gen düşüncəsinin formalaşma və transfer imkanları məhz bu yaradıcılıq prosesinin sürət tempi ilə şərtlənir. Sivilizasiyalı dünyada elə xalqlar vardır ki, onların düşüncəsində tarixi-genetik və etnopoetik dəyərlərin modernləşməsi uzun zaman tələb etmişdir. Belə xalqlara mədəni dəyərlər regional gen yaddaşı vasitəsilə qonşu xalqlardan transfer edilmişdir.

V.Manqardtın fikrincə, ibtidai etnosun transfer imkanı beş mühüm dəyər kompleksi ilə şərtlənir. Onlar içərisində etnopsixoloji və etnokulturoloji dəyərlərin funksiyaları isə daha geniş və əhatəlidir. Ən mühüm mədəni dəyərlərin yaranıb formalaşması onların yaradıcılıq ənənələri ilə daha çox bağlıdır (5,s.89).

Gen düşüncəsinin tam və dolğun məzmun göstəricilərini isə aşağıdakı sxemdən aydın görmək olar:




*Sxem 2.*

Burada da oxşar dəyər göstəriciləri çoxmərhələli və çoxpilləlidir. Gen düşüncəsi ilk növbədə tarixi-genetik və etnopoetik dəyərləri formalaşdırır. Gen cəbbəxanasında tarixi-poetik dəyərlərin formalaşması isə qismən daha uzun çəkəndir. Onun mükəmməl modelinin yaranması həmçinin mürəkkəb, qeyri-müəyyən zamanda baş verən yaradıcılıq prosesi kimi gündəmə gəlir. Elə bu yaradıcılığın cilalanma məqamında o, parçalanmaya məruz qalır. Gen düşüncəsinin mühüm tərkib hissəsini təşkil edən etnopsixoloji və etnokulturoloji dəyərləri yaradır. Bütün bunlar isə vahid sistemdə gen düşüncəsini dünyanı dərk etmənin və mədəni tərəqqinin inkişaf tempinə uyğun olaraq daimi şəkildə onu zənginləşdirən dəyərlər silsiləsi ilə təmin edir. Bu dəyərlər genetik düşüncədə cilalanır, təkmilləşir, bölünüb parçalanır, qlobal və regional süjet müstəvisində xalqlar arasında yayılır.

Gen düşüncəsinin daimi fəaliyyət sistemi və formalaşma xüsusiyyətlərini də riyazi şəkildə ifadə etmək mümkündür.

Əgər gen düşüncəsini $G_d$, tarixi-genetik dəyərləri A, etnopoetik dəyərləri C, tarixi poetik dəyərləri B, etnopsixoloji dəyərləri F, etnokulturoloji dəyərləri D ilə işarə etsək onda Gen düşüncəsinin ümumi modelini aşağıdakı şəkildə riyaziləşdirmək olar:

$$G_d = G : (A + C) + B \times (F + D)$$

Bu isə ibtidai insanın gen düşüncəsinin törəniş modelinin əsasını, onun inkişaf və yüksəlişinin başlıca istiqamətlərini əhatə edir. Gen düşüncəsinin ümumi yüksəlişi isə iki mühüm faktorun imkanlarından çox asılıdır. Bunlardan ***birincisi,*** yuxarıda deyildiyi kimi, tarixi-genetik dəyərlərin etnik düşüncədə sabitləşməsi və pozulmaz mövqeyə yüksəlməsi, ***ikincisi*** isə etnopoetik dəyərlərin yaranması, dərki və yüksək inkişaf tempi imkanı ilə genetik düşüncədə bərqərar olmasıdır.

Tarixi-genetik düşüncədə etnos özünəməxsusluğun bütün çalarlarda dərkinin fövqünə yüksəlir, onların hər birini dəyər qaynağı kimi qətiləşdirir. Hər birinin pozulmazlığını, təkzib və təftiş edilməzliyini təsdiqləyir, onları ibtidai dərketmənin pozulmaz mədəni dəyərinə çevirir.

Etnopoetik dəyərlər isə özünü üç mərhələdə formalaşdırır. Onların birincisi səs və söz komplekslərinin, ritm, alliterasiya, ahəng və assonansların yaranmasıdır. Burada ***birinci*** amil səs və söz dəyərlərinin ilkin poetik səs komplekslərinin modernləşməsidir. ***İkincisi,*** səs-hərəkət dinamikasının, pan-

tomim hərəkətlərdə hərəkət-söz formulalarının aktivləşməsidir. *Üçüncü* amil isə nəqletmə və təhkiyənin yüksəlişi, bu amillərin birlikdə şəcərə – gen düşüncəsinin bütövləşməsinə yönəlməsidir.

Gen düşüncəsində ikinci parçalanma hadisəsi isə əldə edilən ənənələrin tarixi-poetik sisteminin yaranma prosesi ilə bağlıdır. O, tarixi-genetik və etnopoetik zəmində gen modelinin pozulmazlığını bərqərar edir, onu yeni parçalanmalara, öz bütövlüyünü tamamlayıb başa çatdırmağa, geni yeni dəyərlərlə zənginləşdirib yaddaş koduna ötürməyə imkan verir.

Əslində bu, gen düşüncəsinin həyatvericilik funksiyasını qoruyub saxlayan, genin daimiliyini və əbədiliyini bərqərar edən, onun yaxın və uzaq, mədəni səviyyə etibarı ilə inkişaf etmiş xalqların düşüncəsinə axınını təmin edən yaddaş kodunun yaranmasının başlanğıcıdır. Bu özü çətin və mürəkkəb bir yaradıcılıq prosesidir. Yaddaş kodu nədir və necə yaranır? XIX əsrin əvvəllərində Avropada ibtidai düşüncənin inkişaf istiqamətlərindən bəhs edən V.Manqardt, O.F.Miller və b. T.Benfeyə qarşı çıxaraq ibtidai təfəkkürün hüdudlarını kifayət qədər qiymətləndirməyin zəruriliyi üzərindən sükutla keçərək belə bir nəzəri fikir irəli sürürdülər ki, mədəni dəyərlərin yaranmasında məzmun, yaxud etnopsixoloji dəyər iştirak etməyə də bilər. Əsas odur ki, yaranan dəyərlər poetik cəhətdən tam və dolğun olsun. Məsələn, O.F.Miller yazırdı ki, T.Benfeyin bir çox paremik modellərin, məsələn, əfsanə, nağıl, təmsil, yaxud tapmacanın Şərqdən Qərbə keçməsi mülahizələri inandırıcı deyildir. Çünki bunlarda elə dərin etnopsixoloji və etnokulturoloji düşüncə əks olunmur. Bu folklor vahidlərinin yaradılması üçün adi sənətkarlıq vərdişləri kifayətdir ki, hər xalq öz müşahidəsi, bədii sənətkarlıq imkanları səviyyəsində belə folklor vahidləri yarada bilsin. V.Manqardt isə bu mülahizələrə cavab verir ki, T.Benfey tapmaca, əfsanə, yaxud nağılın quru sxematik ad göstəricisini deyil, öz əfsanə və nağılında qoyulmuş məzmunun Şərqdən Qərbə keçdiyini göstərirdi. Təbii ki, bu halda T.Benfey həmin süjetin avropalılar içərisində mövcüdluğunu güman etmirdi. Elə zənn edirdi ki, onlar Şərqə məxsusdur və oradan Qərbə keçmişdir. T.Benfeyin yanlışlığı bir sıra süjetlərin ilahi mənşəli olduğunu dərk edə bilməməsində idi. XIX əsrin nəzəri fikrində «ilahi mənşəlilik» anlamı Qrimm qardaşlarından sonra O.F.Millerin və V.Manqartın nəzəri mülahizələrində özünü göstərirdi. Onlar da öz sələfləri kimi həmin mülahizələrində şifahi poeziya nümunələrində, eləcə də eposlarda ilahi mənşə

kökünün, yaxud təsirinin mövcudluğunu qəbul edirdilər, ancaq onun ilahi qaynaqdan poetik dəyərlərə süzülmə, yaxud transfer forma və xüsusiyyətlərini göstərə bilmirdilər. Çünki tarixi-poetik dəyərlərin etnopsixoloji və etnokulturoloji dəyərlərə çevrilmə prosesinin açıqlanması, onun gen düşüncəsində yeni, oxşar mədəni dəyərlər, yaxud süjetlər yaratmaq imkanlarının qeyri-müəyyənliyi hələ davam etməkdəydi. Bu isə yaddaş kodu idi. O, insana ilahi mənşə kökündən – gen qaynağından ötürülürdü.

*Ancaq bizim apardığımız eksperimentlər göstərir ki, tarixi-poetik dəyərlər tarixən inkişaf etmiş xalqlarda elə yeni etnopsixoloji və etnokulturoloji dəyərlər formalaşdırır ki, onlar gen düşüncəsinin qlobal modelini tamamlayır. Bu modelin fasiləsiz fəaliyyəti isə yalnız gen yaddaşı vasitəsilə həyata keçirilir. Gen yaddaşı qəbul etdiyi müxtəlif süjet, motiv, obraz və təfərrüatları ilk növbədə modern formaya salıb mühafizə edir, onların fasiləsiz cilalanma və müxtəlif amplitudalı ötürücülük funksiyasını öz üzərinə götürür.*

Bu isə gen yaddaşının özünəməxsus bütövlüyünü və bölünməzliyini tamamlayaraq, onun vahid düşüncə modelini bərqərar edir. Bu modeldə gen yaddaşı bütün mədəni dəyərləri, poetik ifadə formalarını, süjet, motiv, obrazlar silsiləsini, eləcə də estetik düşüncəsinin sabit repertuar mətnlərini özündə ehtiva edir. O, eyni zamanda süjet cəbbəxanasının fasiləsiz zənginləşdirməsini və ötürücülük funksiyalarını həyata keçirir. Gen yaddaşı modelinin fəaliyyət funksiyaları aşağıdakı sxemdə özünü əks etdirir.

***Gen yaddaşı modelinin fasiləsiz fəaliyyət funksiyası***

***Sxem 3.***



Əgər Gen yaddaşını $G_y$-ilə, onun birinci təzahür formasını $D_1$, ikinci təzahür formasını $F_1$, üçüncü təzahür formasını $N_1$ ilə işarə etmiş olsaq onda $G_y$-nin (Gen yaddaşının) belə bir riyazi ifadəsini almaq olar:

$$G_y = (D_1 + F_1 + N_1)$$

Bu isə o deməkdir ki, Gen yaddaşı özü də daimi dövrüyyədədir, təmizlənmə və zənginləşmədədir. O özündən əvvəlki bütün süjet və motivlərlə yanaşı gen – nəsil şəcərəsi ilə bağlı yaranan süjetlərin onda yaşayan silsiləsinin daimi və fasiləsiz dövriyyəsini tənzimləyir.

O, eyni zamanda nəsil, şəcərə süjetləri toplumunu, yaxud mədəni dəyərlər cəbbəxanasını zənginləşdirir, mədəni xalqların, yaxud mədəniyyəti qismən inkişaf etmiş xalqların şifahi yaradıcılığına müvafiq qlobal və regional süjetlərin fasiləsiz olaraq səpələnməsini təmin edir.

Mədəni dəyərlərin inkişafı yenidən gen düşüncəsinə qayıtma və gen yaddaşına ötürülmə prosesində onun dinamikliyi baxımından da diqqəti cəlb edir. O, oxşar süjetlər cəbbəxanasını tənzimlədiyi kimi, həmin dəyərlərin qlobal və regional tənzimlənmə funksiyalarını da üzərinə götürür. Bu isə gen yaddaşının fazalar (mərhələlər) üzrə fəaliyyətinin məcmuunda üzə çıxır. Gen yaddaşı beş fazalı inkişaf qütblərinə ayrıldığı məxrəcdə hər faza özünəməxsus fərqli dəyər silsiləsini formalaşdırır. Fazalararası əlaqə və qarşılıqlı təsirlər bu prosesdə istisna olunmur. Hər bir faza (mərhələ) gen düşüncəsinin daimiliyini özünəməxsus çevrədə tənzimləyir. Bu yaradıcılıq prosesində qlobal düşüncənin regional, əlahiddə hallarda isə regional düşüncənin qlobal düşüncəyə çevrilməsi baş verir, bir-birini qarşılıqlı şəkildə əvəzləmənin daimi və zəncirvari hərəkəti başlayır. Həmin mürəkkəb yaradıcılıq prosesinin törəmə və fəaliyyət funksiyasını aşağıdakı sxemdə görmək olar:

*Sxem 4.*




Bu hərəkət fasiləsizliyində gen yaddaşının fasiləsiz ötürmə (transfer) imkanını reallaşdıran mədəni dəyər yükləri cəmlənir. Hər bir dəyər yükü gen yaddaşı cəbbəxanasında uzunmüddətli yaşam mərhələsi keçib cilalanaraq sabitləşdikdən, parçalanma və qopma, ayrılma və pozulma vərdişlərini arxada qoyduqdan sonra xalqların şifahi yaradıcılığına oxşar, yaxud eyni ölçü və qəliblərdə, eyni həcmdə və amplitudada bölüşdürülür. Nəticədə isə sivilizasiyalı xalqların yaradıcılığında transfer edildiyi formada, bütöv və tam qəliblərdə, qonşu, yaxud eyni etnik kökdən olan xalqların etnik yaddaşında isə bölünmüş, parçalanmış, baş süjet və ya motiv saxlanmaqla regional düşüncədə işlənmiş, yeni repertuar həyatı imkanları qazanmış halda daxil olur. Bu prosesin riyazi modeli onun daimi mütəhərrik hərəkətinin dinamikasını əks etdirir.

Əgər Gen yaddaşının ümumi inkişaf fazasını $G_f$-lə, birinci fazanı $G_1$, ikinci fazanı $G_2$, üçüncü fazanı $G_3$, dördüncü fazanı $G_4$ və beşinci fazanı $G_5$ ilə işarə etsək gen yaddaşının bez fazalı inkişafını riyazi şəkildə aşağıdakı kimi ifadə edə bilərik:

$G_f = (G_1 + G_2) - G_3 \times (G_4 + G_5)$

Gen yaddaşı bu riyazi formula əsasında daimi yaradıcılıq fəaliyyətindədir. O, bir tərəfdən şəcərə, gen düşüncəsindən fasiləsiz olaraq süjetləri qəbul edir, digər tərəfdən isə özünün qlobal yaddaşında onları cilalayıb tənzim edərək yüksək və aşağı sivilizasiyalı xalqların etnik yaddaşına transfer edir. Bu etnopsixoloji və etnokulturoloji yaradıcılıq ənənələri və prinsipləri əsasında gen yaddaşının fasiləsiz fəaliyyətini tənzimləyir.

Qlobal gen düşüncəsinin transfer məqamında gen yaddaşının parçalanması, – ikiyə ayrılması da onun fəaliyyətinin maraqlı məqamlarındandır. Qlobal gen düşüncəsi fəaliyyəti dövründə öz bütövlüyünü qoruyub saxlaya bilmir – qlobal və regional düşüncəyə parçalanır. Bu parçalanmanın daxili spesifikasını açmaq, onun bölünmə səbəblərini müəyyənləşdirmək əslində bugünkü elmi-nəzəri fikrin imkanı xaricindədir. Ancaq bunu açıqlamağa kömək edəcək bir sıra amillərin mövcudluğu inkaredilməzdir. Bunlar içərisində dünya xalqlarının müxtəlif sivilizasiyalara və etnik qruplara bölünməsi, eləcə də onların ictimai tərəqqisini təşkil edən faktorların, qanunauyğunluqların bərabərsizliyi, onlar arasında etnopsixoloji və etnokulturoloji fərqlərin mövcudluğu, məişət və əxlaqi dəyərlərə fərqli prizmalardan yanaşması, bir sıra demoqrafik dəyər ölçülərinin dünyəvi dəyərlərlə tarazlıq nisbətinin pozulması və s. kimi amillər həmən parçalanmaya, şübhəsiz ki, təsirini göstərməmiş deyildir. Eyni zamanda qlobal gen düşüncəsinin parçalanmasında Avropa ölkələrində – yəni Qərbdə, yaxud sivilizasiyanın yaranma beşiyi olan Şərqdə yaşayan xalqlar arasında fərqli demoqrafik normativlərin mövcudluğu da başlıca şərtlərdən hesab edilə bilər. Bu isə qismən sivilizasiyaya doğru inkişafın sıçrayışlı və aşağıtempli sürəti, regionlarda və fərqli coğrafi ərazilərdə mədəni səviyyənin inkişafı və s. ilə əlaqələndirilə bilər. Qlobal gen düşüncəsi bir sıra xalqlarda tam və bütöv mühafizə modelinə, müəyyən qisim xalqlarda isə baş motivin variantlaşması spesifikasına malikdir. Bu yaradıcılıq prosesində zaman və məkan atributları da müəyyən nüfuzedicilik gücünə malikdir. *Qlobal gen düşüncəsi yüksək və inkişaf etmiş düşüncədir. Onun zəngin təşəkkül və formalaşma zəmini vardır. Dünya xalqlarının ən zəngin estetik dəyərləri qlobal düşüncə toplumunda cəmləşmişdir.* Həm də onların bir çoxu parçalanmaz, pozulmaz, sabit və daimi fəaliyyət funksiyalarına malikdir. Onlar dünya xalqlarının gen yaddaşında elə beləcə də yaşayır. Bununla belə qlobal gen düşüncə-

sinin regional parçalanması, süjet, motiv və obrazların bu parçalanma zamanı yenidən işlənməsi, regional xüsusiyyətlərə yiyələnməsi və yaxın, yaxud eyni etnik qrupa daxil xalqlar içərisində oxşar süjetlər şəkilində səpələnmə xüsusiyyəti də mövcuddur. Bu çoxcəhətlilik aşağıdakı sxemdə əks olunur:

*Sxem 5.*




Gen düşüncəsindən qopan, ayrılan dəyərlər qlobal və regional dəyərlər kimi cəmiyyətdə sürətlə yayılma, cilalanma və parçalanma xüsusiyyətlərinə malikdir. Müəyyən zaman kəsimində qlobal düşüncənin sivilizasiyalı cəmiyyətdə bütövləşərək gen düşüncəsinə bərabərləşmə imkanı da mövcuddur. Belə ki, sivilizasiyalı cəmiyyətdə qlobal gen düşüncəsi gen şəcərə düşüncəsindən qopma əlamətlərini tamamilə itirib bütövləşir və qlobal düşüncə ilə yenidən çarpazlaşır. Əgər Gen birliyini $G_b$ ilə, qlobal düşüncəni $G_{qlob}$, Regional düşüncəni $G_{reg.}$-lə işarə etmiş olsaq, bölünmənin aşağıdakı riyazi modelini almış olarıq:

$$G_b = (G_{qlob} + G_{reg})$$

$G_b$-nin parçalanması və ayrılması da çoxvariantlı özünəməxsusluqlarla zəngindir. O, qeyri-müəyyən zaman və məkan daxilində baş verir. Bu prosesin fəaliyyət məkanının yalnız bir atributu məlumdur. O da parçalanmanın başlıca sivilizasiya ənənələrinin yüksək olduğu xalqlar içərisində baş verməsidir. Bu özü isə qeyri-müəyyən və ya şərti məkan kimi qəbul edilə bilər. Zaman isə tam qeyri-müəyyəndir. Gen düşüncəsi, onun yaranma və yayılma çevrəsində isə belə qeyri-müəyyənliklər intəhasızdır. Dünya xalqlarının oxşar mədəni dəyərləri içərisində qlobal gen düşüncəsi ilə bağlı süjetlərin çəkisi yüksəkdir. Bunların sırasında övladsızlıq, döyüş meydanında tanınma, atalar-oğullar, ögey ana, nahaqdan böhtana düşmə, müxtəlif cild və cins dəyişmələr,

ölüb-dirilmə və s. kimi süjet və motivlər daha geniş yayılmışdır. Məlumdur ki, nəsil, şəcərə tarixi ilə bağlı olan belə süjetləri fin nəzəriyyəçiləri K.Kroon və A.Aarne dünyanı gəzən səyyar süjetlər adlandırmışlar (7,s.103). Halbuki təqdim edilən bu süjetlər insanın həyatı, taleyi ilə bağlı olub, gen yaddaşında daimi fəaliyyətdə olan süjetlərdir. Onların dünya xalqlarının şifahi yaradıcılığındakı oxşarlıqları isə səyyar təbiətlə deyil, vahid gen düşüncəsindən qopub dünya xalqlarının şifahi yaradıcılığında oxşar dəyərlər şəklində yayılmaları ilə əlaqədardır. Eyni zamanda bu süjetlər insanların müştərək yaşam tərzi ilə bağlı olub, şifahi yaddaşda deformasiyalara uğramadan daşlaşmışdır. Çünki onlar qlobal gen birliyi süjetlərindən olub, pozulmaz, ayrılmaz və dəyişməz xüsusiyyətləri ilə səciyyəvi idilər.

İbtidai insanın gen yaddaşında yaşayan və dünyanın dərki ilə bağlı qismən sonrakı mərhələdə yaranan süjetlər silsiləsi də oxşarlıqların ənənəvi qaynağıdır. Onların da sırası genişdir. Xeyirxah quş, qanadlı at, ilan, balıq, açılan süfrə, yığılan xurcun, boşalmayan kəşkül, uçan xalça, sehrli güzgü, pay verib pay ummayan dərviş, pərilər, muzalar, Həsən Çapsan, Həsən Yekdəstə kimi xeyirxah divlər, İrəm bağı pəriləri, müxtəlif səciyyəli qarılar, əjdahalar, əfsanəvi quşlar və s. Onların hər birisinin gen yaddaşında özünəməxsus süjetyaratma məharəti, qlobal və regional düşüncədə silsilə yayılma variantları vardır. Təqdim olunan yeni nəzəri baxışı əsaslandırmaq üçün onların dünya eposunda görünən yalnız bir neçəsi üzərində dayanmaqla kifayətlənməyi mümkün hesab edirik. Onlardan ***birincisi, qanadlı at süjetidir.*** Qanadlı at təbii ki, uçan xalçadan əvvəl yaranmışdır. At obrazının ilk nümunəsi bizə qədim bir türk mifi kimi gəlib çatmışdır. «At kultunun törəniş modelində mağarada törəyən və yaşayan, ilxıda böyüyən və yüyənə salınan atlarla yanaşı, mənşəyində su, od, yel və torpaq törənişi olan cəngavər at obrazları da vardır» (7,s.177). Mənşəyində su törənişi olanlar dərya atlarıdır, mənşəyində od törənişi olanlar isə sonradan bəslənib böyüdülən qanadlı atlardır, mənşəyində yel və torpaq etiqadı olanlar isə işlək atlardır, insanın yaxın köməkçiləridir. Bizə gəlib çatan mif isə atın erkən törənişini belə qoruyub saxlamışdır.

«Ah Vanın ölümündən sonra Ay-Atam qaldığı mağarada yaşaya bilmədi. Qaf dağının ətəyinə, Ağrı dağla üzbəüz dayanan «Ay-Atam» mağarasına gəldi. Bu mağaraya günəş onun ancaq uca, açıq təpəsindən düşürdü.

Günün qızmar vaxtında mağara od tutub yanar, Ay-Atam səringaha çəkilib günün batmasını gözləyərdi.

Ay-Atam mağarada dörd çala düzəltmişdi.

**Birinci** çalada insana həyat verən **suyu** saxlayırdı, bu suyun rəngi bom-boz idi.

**İkinçi** çalada **kösöyu** (odu – A.N.) qoruyub saxlayırdı, onu sönməyə qoymurdu.

**Üçüncü** çalada körük düzəltmişdi. Bir də gördün körüyü basdı, ətrafa xoş bir hava yayıldı. Cənnət ətirli hava Ay-Atamı lap meyxoş edərdi.

**Dördüncü** daha böyük bir çalada isə sarıtorpaq qarışığı saxlayırdı. Ay-Atam istəyirdi ki, həmin sarı torpaqdan insan müqəvvaları düzəldib onlara can versin.

Bir gün mağaraya Ay-Atamın yaratdığı adamlardan biri gəlib çıxdı.

Ay-Atam dedi:

- Gör nə vaxtdır getmisən... Harada itib-batmısan, tez gələ bilmirdin?

Həmin adam Ay-Atama dedi:

- Mənə yemək düzəltdin, paltar düzəltdin, bəs nə üçün minik düzəltmədin ki, göndərdiyin yerə tez gedib-qayıdım?

Ay-Atam üç gün bir söz demədi. Dördüncü gün palçıq çalasından palçıq, su çalasından su gətirdi. Gildən saçlı-yallı bir müqəvva düzəltdi. Gətirib ona od çalasının üstündə istilik verdi. Sonra Yel çalasından kürəyi götürdü, ona nəfəs verdi və canlandırdı. Adam Ay-Atamın yaratdığı canlıya baxdı, kəlləsindəki buynuzlar xoşuna gəlmədi, «buynuzları at» deyə qışqırdı. Ay-Atam yaratdığı və can verdiyi gözəl heyvanın buynuzlarını atdı və dedi:

- Al min, bunun adını At qoydum.

O gündən al qanadlı, ağzından od püskürən at yarandı» (7,s.177-178).

Azərbaycan mifologiyasında cəngavər atın ilkin görüntüsü belədir. Təbii ki, həmən görüntü qlobal gen düşüncəsində daha yüksək sürətə malik qanadlı at törənişini doğurmuşdur. Təqdim edilən isə ibtidai insanın erkən süjetlərindən olub gen düşüncəsinin qlobal layına məxsusdur.

Dünya xalqlarının mədəni dəyərləri içərisində bu süjetin müxtəlif regional variantları vardır. Süjetin daha qədim bir variantı isə yunan mifologiyasında qorunub saxlanmışdır. Yuxarıda qeyd etdiyimiz kimi, yunan eposundan məlumdur ki, Persey Meduza Qarqonanın başını kəsir və onun qanı axıb

dənizə tökülür. Onun qarnından isə iki At – Peqas və Krisaor çıxır. Hər ikisi qanadlı atlar idi və onları sonradan yunan eposunda mifoloji məzmunun mərkəzində görürük. Təbii ki, bu, yunan mifoloji düşüncəsində atın Ay-Atamın yaratdığı cəngavər atdan sonra işlənmiş və gen yaddaşına süzülmüş variantı idi. Bundan əlavə qanadlı at motivinə çin mifologiyasında da təsadüf olunur (8,s.340). «Xan-Şu»nun 96-cı fəslində qeyd olunur ki, Tay-Yuanda (Fərqanədə) çoxlu gözəl atlar var. Bu atlar qanla tərləyir və deyilənlərə görə onların ulu əcdadları səma (cənnət) atları olmuşdur» (8,s.371). Atların mənşə xüsusiyyəti, xüsusilə əcdad şəcərəsi Ay-Atamın yaratdığı At süjetində əslində özünü göstərirdi. O da insan kimi, su, od, yel və torpaq çarpazlaşmasından dünyaya gəlmiş, sonradan isə mifoloji düşüncədə epikləşmişdir. «... Çin mifologiyasında atlar heç zaman «cənnət» və ya fövqəltəbii şəkildə adlandırılmır. «Cənnət atları» termini Çin mənbələrində yalnız e.ə. 119, ya da 115-ci ildən, yəni təsvir edilən hadisələrdən sonra meydana çıxmışdır» (8,s.372). Azərbaycan mifologiyasında isə atların çaydan çıxmış ayğırla törənişi geneoloji kökü mövcuddur (9,s.21). «Alı kişi Röşənlə Ceyhun çayının kənarında bir gün yenə Həsən xanın ilxısını otarırdı.

Alı kişi Röşənə qurşaq tutmaq öyrədirdi. Birdən Röşən atasına dedi:

- Dədə, dəryadan çıxan ayğırlara bax!

Alı kişi baxdı, gördü ki, doğrudan da dəryadan iki ayğır çıxdı. Gəlib ilxıya qarışdı. Ayğırlar çox hərrəndi, axırda iki ağ madyanı ilxıdan qoub uzaqlaşdırdı. Ayğırlar madyannarnan cütləşdi. Sora tazadan Ceyhun çayına geyitdi. Alı kişi dedi:

- Hə, oğul bu, gördüyümüz ikinci möcüzədi. Tez kömür götür get, ağ madyannarı nişanna. Ancaq, oğul yadda saxla ha, genə bu söz barədə heç kimə bir söz dimağ olmaz» (9,s.21).

Burada da qanadlı at motivi müəyyən məqamda özünü qoruyub saxlamışdır. Ali kişinin çıxarılmış gözlərinin əvəzində ona «bəxşiş edilmiş» atlara qırx günlük qulluq qaydalarının Rövşən tərəfindən pozulması – qapıdan açılmış deşikdən «qızıl qanadlar»ın üzərinə işıq düşməsiylə qanadların yox olması sonradan «Qır at» adlandırılacaq atın genetik düşüncədəki şəcərə mənşəyindən soraq verməkdədir. Cəngavər at süjetinin bu şəkildə qlobal və regional düşüncədə ikiləşməsi – qanadlı at motivinin qlobal düşüncədən regional düşüncəyə çoxpilləli rekonstruksiyası ilə bağlı olub, müxtəlif xalqlar içə-

risində fərqli variantlaşma məxsusluğundan xəbər verir. Bu isə ümumilikdə dünya xalqlarının mifologiyalarına yeni yanaşma metodologiyasının vacibliyini gündəmə gətirir. Mifoloji süjet, motiv, obraz və bir sıra başqa məqamların qlobal gen düşüncəsində özünəməxsus yer tutması, süjetlərin dünya xalqlarının mifologiyasında oxşar dəyərlərin başlıca qaynağı kimi açıqlanmasının vacibliyini təsdiqləyir. Bu gün bir sıra xalqların mifoloji təsəvvürlərinin dünyəvi qaynaqdan baş alıb gəldiyini təsdiqləyir. Xüsusilə eyni etnik kökə məxsus xalqların (o cümlədən türk xalqlarının) şifahi yaradıcılığında oxşarlıqlar təkcə onların tarixən sıx mədəni-iqtisadi və tarixi əlaqələri ilə deyil, eyni zamanda qlobal gen düşüncəsindən gəlmiş genetik ənənələrlə bağlılığını göstərir. Bu gün Azərbaycan xalqının folklor yaradıcılığında, eləcə də Şimali Qafqaz və Cənubi Qafqaz xalqlarının (gürcülər nəzərdə tutulur) ağız ədəbiyyatında qədim yunanların mədəni dəyərləri, oxşar süjetlərdə əks olunur. Təbii ki, bunu yunanlarla türklərin (Azərbaycan türklərinin) qədim mədəni əlaqələrinin mövcudluğu nəticəsindən daha çox xalqların tarixi gen birliyi, qlobal gen düşüncəsinin regionallaşması ilə əlaqələndirmək daha əsaslıdır.

Qlobal düşüncədən türk mədəni dəyərlərinə yeni dəyər transferi oxşar süjetlərin yaranmasının modern yollarından biridir. Burada yayılma çevrəsi yunan – skif – türk üçbucağındadır və yunan mifoloji düşüncəsindəki dəyərlərin türk, Şimali Qafqaz və b. xalqların regional gen yaddaşına transferi ilə bağlıdır. Problemin bu şəkildə öyrənilməsi bir neçə həqiqəti açıqlamağa imkan verir. ***Ən birincisi*** isə ümumtürk şifahi düşüncəsindəki bir sıra oxşar dəyərlərin qədim yunanlardan onlara keçməsi, regional gen düşüncəsi vasitəsilə türk xalqları (o cümlədən Azərbaycan türkləri) içərisində yayılmasıdır. ***İkincisi,*** Azərbaycan türklərinin oxşar mədəni dəyərlərinin qədim türk qaynaqları ilə yanaşı, həmçinin yunan-skif süjet çarpazlaşmasından bəhrələnməsidir. Bu isə qlobal gen düşüncəsinin sivilizasiyalı xalqlar içərisində yayılma spesifikası ilə bilavasitə əlaqədardır.

Həmən aparıcı istiqamət Azərbaycan türklərinin bir çox folklor süjetlərində özünü göstərir. «Kor kişinin oğlu», «Qızın nahaqdan böhtana düşməsi», «Təpəgöz – Kəlləgöz – Siklop - Polifem», ölüb dirilmə və onlarla başqa süjet, motiv və obrazlar geneoloji kök etibarı ilə yunan qaynaqlarına söykənir. Problemin bu şəkildə qoyuluşunun nəzəri əsaslandırılması, yunan-skif mədə-

ni dəyərlərinin türk xalqlarının (o cümlədən Azərbaycan türklərinin) folklorunda əksi bir çox tədqiqatçıların da diqqətini cəlb etmişdir.

Yunan mifoloji süjetlərinin skiflər vasitəsilə türklərə transiləsi qədim dövrlərdə baş vermiş transfer proseslərindəndir. Məsələn, bir çox araşdırıcılarla yanaşı tədqiqatçı Z.Həsənov da türklərin qədim hunlarla bağlılığını ehtimal edir. Onun fikrincə «qanla tərləyən» yunan atları ilə xunların (hunların) cənnət atları arasında müəyyən genetik yaxınlıq mövcuddur. Bu oxşarlıq xunlarla (hunlarla) yunanların cəngavər at süjetlərinin vahid mifoloji zəncirini nümayiş etdirən detallardandır (8,s.373).

Z.Həsənovun süjetlərin genetik xüsusiyyətlərini antik qaynaqlarla müqayisələrə cəlb etməsi «qanadlı at» motivini mənşə etibarı ilə qədimliyindən xəbər verdiyi kimi, qəhrəmanlıq süjetlərinin bir çoxunun da təkgözlü,bir gözü döyüşdə kor edilmiş və ümumiyyətlə «kor kişinin oğlu»nun qəhrəmanlığından baş alıb gəlməsini təsdiqləyir. Bunların bir çoxunun isə yunan – xunn (hunn) və yunan – skif qaynaqları üçün ənənəviliyi müəllif tərəfindən faktik materiallarla əsaslandırılır. Tədqiqatçı müqayisələrə cəlb etdiyi onlarla mədəni dəyərin oxşarlıq səbəbini açıqlamağı qarşısına məqsəd qoymasa da, bu oxşarlıqların dünya xalqlarına məxsus gen düşüncəsi ilə bağlılığını tədqiqata cəlb etməsə də oxşar mədəni dəyərlərin tarixi-genetik eynilik və birliyinin aydın mənzərəsini açıqlayır. Bu isə oğuz epik düşüncəsində formalaşmış bir çox genetik dəyərlərin, o cümlədən şöhrətli oğuz qəhrəmanlıq süjetlərinin və miflərinin yunan – skif – türk qaynaqlarında çarpazlaşması və variantlaşmasından xəbər verir.

Yunan – skif – türk xalqları gen düşüncəsi üçün ənənəvi və oxşar dəyərləri arealının və regional xüsusiyyətlərinin müqayisəli araşdırmaları isə qlobal və regional gen yaddaşının coğrafi rekonstruksiya məkanını müəyyənləşdirməyə yol açır.

Oxşar dəyərlərin – süjet, motiv və obrazların bənzərlik və eyniliyinin gen, nəsil, şəcərə düşüncəsi ilə bağlılığı isə ümumilikdə mədəni dəyərlərə yeni baxış olub, geneoloji nəzəriyyənin əsasını təşkil edir. Dünya xalqlarının qlobal və regional gen düşüncəsinin yeni nəzəri baxımdan öyrənilməsi sivilizasiya dəyərlərinə, dünya xalqlarının süjet yaratma imkanlarına yeni yanaşma formalaşdırmağa yol açdığı kimi, eyni zamanda qloballaşma dövründə dünyanın yeni düzümünün real ölçü və qəliblərini müəyyənləşdirməyin də perspektivlə-

rindən xəbər verir. Bu isə tarixən eyni geneoloji qaynaqdan yaranıb şaxələnən xalqların yenidən həmin erkən törəniş qaynağına üz tutacağına, vahid qlobal xalqa çevrilib dünya sərvətlərini bərabər prinsiplər əsasında bölüşdürülmə nizamını formalaşdıracağına imkan verəcəkdir.

Bu isə müharibəsiz, terrorsuz, milli münaqişələrsiz bir dünyaya açılan yolun başlanğıcı olacağına böyük ümidlər doğurur.

## ƏDƏBİYYAT:

1. Folklorşünaslıq məsələləri. VI buraxılış. Bakı, 2007, s.3-6
2. Быковский С.Н. Н.Я.Марр и его теория. М., 1969, 372 с.
3. Алпатов В.М. Теория одного мифа: Марр и марризм. М., 1991, 240 с.
4. İ.V.Stalin. Seçilmiş əsərləri. 7 cild. M., 1948, 395 s.
5. В.Мангардт. Памятники германской мифологии. Русский перевод и предисловие Г.А.Миланова. М., 1969, 285 с.
6. Дж.Коккьяра. История фольклористики в Европе. (перевод с итальянского). М., 1960, 689 с.
7. Azad Nəbiyev. Azərbaycan xalq ədəbiyyatı. I hissə, «Turan» nəşrlər evi, akademik B.Nəbiyevin redaktorluğu ilə, Bakı, 2002, 680 s.
8. Zaur Həsənov. Çar skiflər. (Çar skiflər və qədim oğuzların etnodil eyniləşdirilməsi). Bakı, 2005
9. Koroğlu. Toplayıb nəşrə hazırlayan A.Nəbiyev. Bakı, «Nurlan», 2004

**А.М.Набиев**
**Бакинский Государственный Университет**

### Функции деятельности, формы дробления и динамика кода памяти гена

### РЕЗЮМЕ

Проведенные нами длительные наблюдения и эксперименты дали возможность выдвинуть новую теорию, объясняющую новые направления сюжетных сходств и различий. Последовательно проведенные эксперимен-

ты привели к такому заключению, что сюжетные близости связаны с историческим генетическим единством народов. Стало известно, что, генное единство, исторически возникнув из одного источника, разделило народы мира на антропологические и этнические группы, но вместе с тем оно может устранить разделение в новом порядке мира - процессе глобализации и в будущем с его помощью произойдет сближение и слияние народов. В формировании глобальной модели мировой цивилизации народы (близкие, или образованные из одного этнического корня) снова будут возвращаться к своим общечеловеческим корням и будут подвергнуты слиянию, историческому и генетическому единству с точки зрения культурно-нравственных, морально-эстетических и этических ценностей.

**A.M.Nabiyev**
**Baku State University**

**The functions of activity, the forms of crushing and dinamics of cod memory of gens.**

**SUMMARY**

The successive experiments, the researches based on serious scientific arguments on the topic closeness in the folklore of the peoples of the world makes it possible to come to conclusion that the topic similarity is connected with historical genetic unity of people. It has been proved that the genetic unity arose from one and the same source dividing the peoples of the world into anthropologic and ethnic groups, but at the same time it can eliminate the division of people in a new spirit of the world – in the process of globalization and the process of bringing together and joining of people will start. In the formation of global model of the world civilization, kindred peoples or peoples from one and the same origin, from cultural-spiritual, moral-aesthetic and ethic point of view-will return to their common to all mankind roots and enjoy their historical and genetic unity.